*İlham Əliyev:*

# Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir



**Dünyada və regionda baş verən prosesləri ilk öngünlüyünü yaşadığımız 2016-cı ilin o qədər də asan keçməyəcəyinin anonsunu verir. Xüsusilə bütün dünyanı əhatə edən iqtisadi və maliyyə böhranı və Yaxın Şərq regionunda, Suriya ətrafında və son günlər gündəmi zəbt edən İran-Səudiyyə Ərəbistanı arasındakı gərginlik bu il beynəlxalq situasiyanın olduqca gərginləşəcəyini indidən söyləməyə əsas verir.**

Lakin bütün bunların fonunda Azərbaycanın özünün dinamik iqtisadi inkişafını qoruyub saxlaması və çevrəsində baş verən münaqişələrə rəğmən sabitliyi tam təmin etməsi 2016-cı ilin də ölkəmiz üçün inkişaf və tərəqqi ili olacağını göstərir. Yola saldığımız 2015-ci ildə neftin ucuzlaşması, manatın devalvasiyası fonunda Azərbaycanın bir sıra böyük uğurlara imza atması ölkəmizin uzun illərdən bəri davam edən inkişafının sağlam təməllərə və düşünülmüş məqsədyönlü siyasətə söykəndiyini nümayiş etdirir.

2015-ci ilin ümumi nailiyyətləri və 2016-cı ildə gözlənilən nəticələri Prezident İlham Əliyevin dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrik nitqində əhatəli şəkildə öz ifadəsini tapmışdır. Dövlətimizin başçısı təbrikində yola saldığımız ilin ümumi dəyərləndirilməsini lakonik olaraq belə ifadə etmişdir: "2015-ci ildə yaşadığımız regionda iqtisadi, siyasi, hərbi böhran daha da dərinləşdi, risklər artdı, təhlükələr artdı, yeni çağırışlar meydana gəldi.

Bütün bunlara baxmayaraq, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Bizim əsas vəzifəmiz ondan ibarət idi ki, Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edək, ölkəmizin dinamik inkişafına nail olaq. Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır və yaşayacaqdır. Eyni zamanda, 2015-ci ildə neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, üç dəfə aşağı düşmüşdür. Bunu ilin əvvəlində təsəvvür etmək mümkün deyildi. Ancaq bu, reallıqdır və yenə də Azərbaycanda aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində iqtisadi artım təmin edildi, Azərbaycanda qeyri-neft sektoru inkişaf etdi. Xüsusilə qeyri-neft sənayesinin 7 faizdən çox artması məni xüsusən sevindirir. Bu onu göstərir ki, əvvəlki illərdə apardığımız siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır və neftdən asılılığımız getdikcə daha da azalacaq".

## İLİN BÖYÜK İQTİSADİ LAYİHƏLƏRİ

Bir sıra hadisələrlə yanaşı, 2015-ci il əsasən iki böyük iqtisadi layihənin reallaşması ilə də xarakterizə oluna bilər.

Bunların sırasında regionun və Avropanın ən böyük enerji layihələrindən olan TANAP-ın artıq ötən il icrasına başlanmasını qeyd etmək mümkündür. İlk vaxtlar bir sıra müşahidəçilər tərəfindən icrasına şübhə ilə yanaşılan layihə 2015-ci ildən həyata keçirilməyə rəsmi vəsiqə qazandı. Qeyd edək ki, 5 il ərzində reallaşması nəzərdə tutulan layihənin dəyəri 7 milyard ABŞ dollarıdır. Bu vəsaitin böyük bir hissəsini Azərbaycan öz üzərinə götürüb. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsinin 2018-ci ildə başa çatdırılması nəzərdə tutulur. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd. kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. TANAP layihəsində ARDNŞ 80%, Türkiyənin BOTAŞ və TPAO şirkətləri isə birlikdə 20% paya malikdirlər.

Layihədə Azərbaycanın həlledici rol oynadığına diqqət çəkən Prezident İlham Əliyev sözügedən nitqində bunu xüsusi vurğulamışdır: "TANAP layihəsinin icrası başlamışdır. Artıq TANAP layihəsinin həyata keçirilməsi reallıqdır. Burada Azərbaycan tərəfdaş ölkələrlə çox mühüm rol oynayır, böyük işlər aparır. TANAP layihəsinin əsas səhmdarı və əsas investoru Azərbaycandır. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı bundan sonra onilliklər ərzində dünya bazarlarına çatdıraq və beləliklə, ölkəmizin siyasi və iqtisadi maraqlarını daha dolğun şəkildə təmin edək".

Ötən ilin böyük iqtisadi layihələrindən biri kimi "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində Azərbaycanın atdığı əhəmiyyətli addımları qeyd etmək olar.

Layihənin tarixi haqqında danışarkən qeyd edək ki, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi haqqında razılaşma Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 12 sentyabr 2000-ci ildə Sankt-Peterburq şəhərində bağlanmışdır. Razılaşma 21 may 2002-ci il tarixdən qüvvəyə minmişdir. Bu layihə bütün nəqliyyat növlərinə-dəmir yolu, dəniz, avtomobil, çay və hava nəqliyyatı ilə daşımaları təmin edən nəqliyyat infrastrukturuna və nəqliyyat vasitələrinə aiddir.

Azərbaycanın bu layihədə iştirakının əsası hələ ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən qoyulmuşdur. Lakin 2015-ci ildə məsələ yenidən aktuallaşmış, Azərbaycan beynəlxalq yükdaşımalar sahəsində əhəmiyyətli rol oynamışdır. Bu baxımdan ötən il ölkəmizin dəmir yolları sahəsində görülən bir çox işlər, yeni infrastrukturun yaradılması və təkmilləşdirilməsi sözügedən layihədə ölkəmizin əhəmiyyətini artırmaqla beynəlxalq yükdaşımalarda iştirakını zəruriləşdirir.

Eyni zamanda "İpək Yolu" layihəsi çərçivəsində Şərq-Qərb nəqliyyat dəhlizi ötən il həyata keçirilməyə başlandı. Çindən, Orta Asiyadan Azərbaycana, buradan isə Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan yeni "İpək Yolu" layihəsi reallaşır və burada Azərbaycanın rolu kifayət qədər önəmlidir. 2015-ci ildə Çindən Avropaya daşınan yüklərin ilk mərhələsi Azərbaycanda qarşılandı və yola salındı. Qarşıdakı illərdə bu istiqamətdə işlərin daha da genişləndiriləcəyi artıq reallıqdır.

## İLİN BÖYÜK HADİSƏSİ - "BAKI-2015"

Heç şübhəsiz 2015-ci ilin ən böyük hadisəsi kimi ötən ilin iyun ayında Azərbaycanda keçirilən ilk Avropa Oyunları qeyd edilməlidir. Bu, ölkəmizin müstəqilliyinin bərpasından sonrakı dövrdə təşkilatçısı olduğu ən böyük beynəlxalq tədbir kimi yadda qaldı. "Bakı-2015" həm də ona görə tarixə düşdü ki, bu idman yarışları məhz ilk dəfə bizim ölkəmizdə keçirildi.

Birinci Avropa Oyunlarında 50 Avropa ölkəsindən altı min idmançı iştirak etmişdir. Tədbir bir sıra göstəricilərinə görə də dünyada böyük əks-səda yaratmışdır.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin həm iqtisadi inkişafının, həm də siyasi nüfuzunun yüksəlməsi, bütün dünya dövlətləri tərəfindən qəbul edilməsi kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu Oyunlarla Azərbaycan öz gücünü bir daha nümayiş etdirdi: "İlk Avropa Oyunları Azərbaycan dövlətinin təntənəsidir. Eyni zamanda, Azərbaycan idmanının təntənəsidir".

2015-ci ilin nəticələrinin qısa xülasəsi belə bir əminlik yaradır ki, Azərbaycan bütün dünyada baş verən ümumi böhran kontekstində öz gücü və imkanları ilə 2016-cı ili də böyük uğurlar və inkişaf ili kimi yola salacaq.

**Taleh Turqut,**
***"İki sahil"***